UOT 94 (479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.134

**Vüqar Səmədov**
*Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin*
*Heydər Əliyev adına Hərbi İnstitutunun*
*Elmi-tədqiqat şöbəsinin rəisi*
*Azərbaycan*
*tural-ashina@rambler.ru*

# İMPERATOR I İRAKLİNİN QAFQAZA BİRİNCİ YÜRÜŞÜ

***Açar sözlər:*** *Azərbaycan, Albaniya, Bizans, Sasanilər, Avar xaqanlığı*

590-cı ildə məşhur sərkərdə, Herat döyüşündə (589 il) göytürklərin qalibi Bəhram Çubinin başçılığı ilə Xorasanda üsyan baş verdi. Ordu qiyabi olaraq Sasani hökmdarı IV Hörmüzdu taxtdan devirərək, Bəhramı şahənşah elan etdi. Bundan sonra üsyançı hiylə ilə taxt varisi Xosrovla atası arasında nifaq salmağa müvəffəq oldu. Nəticədə şahzadə atasının qəzəbindən qorxaraq Azərbaycana qaçdıqda, onun təhlükəsizliyini həmin əyalətin mərzbanı öz üzərinə götürdü. Şahzadənin bu ölkəyə qaçması əbəs deyildi. Azərbaycanın paytaxtı Qazakada Sasanilər dövlətinin, şahənşah və azadlar (döyüşçülər) sinfinin üç əsas məbədlərindən biri – Azərgüşnasp adlanan od məbədi yerləşirdi ki, o da öz zənginliyinə görə bütün digər məbədləri üstələyirdi. Sasani şahənşahları taxta çıxdıqdan sonra bu məbədə gəlib orada dua edər və ona hədiyyələr gətirərdilər. Zərdüştilik ənənəsində şərəfli yer tutan, Azərbaycanda bu məbədlə sıx əlaqəsi olan çoxsaylı və nüfuzlu ruhanilər mövcud idi. Məhz buraya şahənşaha müxalif olan mərzbanlar gələrək, Azərgüşnaspda gələcək hökmdara sədaqət andı içdilər. Tezliklə Ktesifonda zadəganlar ordunun köməyi ilə çevriliş edərək, IV Hörmüzdü devirdilər və gözlərinə mil çəkdilər. Əsilzadələr II Xosrovu (591-628) taxta çağırdıqdan sonra isə sonuncu Azərbaycan mərzbanının müşayiəti ilə paytaxta yola düşdü. Tezliklə II Xosrov dövlət taxtına oturduqdan sonra əhali və ordu ona beyət etdi [1, s.85; 4, s.64; 9, s.76; 10, s.83; 16, s.308-309; 20, s.32-33; 21, s.56-57; 22, s.350-351; 31, s.254].

Üsyanının nəticəsiz qaldığını görən Bəhram II Xosrovu devirmək üçün qoşunu ilə Ktesifona doğru hərəkət etdi. Nəhrəvan çayı yaxınlığında baş verən döyüşdə şahənşahın ordusu məğlub oldu, özü isə Bizansa qaçdı. O, Edessadan Konstantinopola səfirlər göndərdi və qəsbkarla mübarizənin aparılması üçün imperatordan hərbi yardım istədi. II Xosrov Mavrikidən (582-602) qırx minlik qoşun və onun saxlanması üçün qırx kintar qızıl diləyərək, taxtına yenidən yiyələndikdən sonra borcunu qaytaracağına söz verdi. Bundan sonra Sasanilərə yardımın göstərilməsi məsələsinin müzakirəsi senata tapşırıldı. İstədiyini əldə etmək üçün II Xosrov bir sıra ərazi və siyasi güzəştlərə getməli oldu. O, son müharibədə əldə edilmiş Martiropol və Daranı bizanslılara qaytaracağını, Persarmeniyadan (Sasanilərin erməni mülkləri) əl çəkəcəyini, döyüşləri dayandıracağını və sülh bağlayacağını vəd etdi (Feofilakt Simokatta); digər mənbələrə görə, qaytarılan torpaqlar sırasına Persarmeniyadan başqa süryandilli əhalisi olan Mesopotamiyanın bəzi əraziləri də daxil idi ("Sebeosun tarixi"). Şübhəsiz ki, II Xosrov Bizansın imperiyanın şimal sərhədlərində qarnizonların saxlanılması üçün Sasanilərə verdiyi pul təzminatlarından imtina etməli oldu; bu qarnizonların vəzifəsi türklərin (VI əsrdə – xəzərlərin) hər iki dövlətin sərhədlərinə soxulmasının qarşısını almaqdan ibarət idi [1, s.85; 11, s.43; 12, s.34; 16, s.310-313; 19, s.35-36; 21, s.58-60, 62; 22, s.351-352; 31, s.254-255].

Bizanslılardan qırx minlik ordu və qırx kintar qızıl alan II Xosrov Atropatenaya daxil olduqdan sonra burada onun bayrağı altına 8000 əsvaran keçdi. Öz növbəsində Bəhram Çubin də ordusu ilə eyni istiqamətdə hərəkət etdi. Rəqiblər Qazaka yaxınlığındakı Dənək vadi-

sində qarşılaşdılar. Baş verən döyüşdə Bəhram sarsıdıcı məğlubiyyətə uğradı və ordusunun çox hissəsi şahənşahın tərəfinə keçdi. Sonra Urmiya gölü yaxınlığındakı Balarət kəndi ətrafında növbəti döyüş oldu. Döyüş başlamazdan əvvəl II Xosrov Bəhramın əsgərləri üçün əfv elan etdi və nəticədə daha 8000 əsvaran onun tərəfinə keçdi. Bu döyüşdə məğlub olan üsyançı Fərqanəyə Göytürk xaqanın yanına qaçdı [1, s.85; 4, s.64-65; 16, s.314-316; 19, s.43-45; 20, s.34; 21, s.62-63; 22, s.353-355; 31, s.255-256].

Döyüşdən sonra Bəhram Çubinin hərbi düşərgəsi talan edildi və zinət əşyaları II Xosrovun əlinə keçdi. Mövcud vəsait Bizans ordusunu və onun sərkərdələrini xidmətlərinə görə mükafatlandırmaq və imperator Mavrikiyə səxavətli hədiyyələr göndərmək üçün kifayət idi. Bundan sonra II Xosrov Atropatenanı tərk edərək Ktesifona yollandı. 591-ci ilin yazında iki dövlət arasında sülh bağlandı. II Xosrov Pərviz qarşısında qoyulmuş müqavilənin bütün bəndlərini yerinə yetirməli idi: I Xosrov Ənuşirvan tərəfindən ələ keçirilən Dara və Martiropolu Bizansa qaytarmalı, Nisibinə kimi Arvastan bölgəsini, Persarmeniyanın böyük hissəsini (Vaspurakan və Dəbil istisna olmaqla) və İveriyanın bir hissəsini təslim etməli, Bizansdan pul tələb etməkdən imtina etməli idi [16, s.316-317; 21, s.63-64; 22, s.355-356].

Beləliklə, Van gölü və Dəbildən Tiflisə qədər bütün ərazi imperiyanın ixtiyarına keçdi [5, s.142; 9, s.76; 19, s.49-50]. Lakin bu bölgü Albaniyaya təsir etmədi və ölkə Sasani mərzbanları tərəfindən idarə olunmaqda davam edirdi [27, s.198].

Lakin 602-ci ildə Foka (602-610) imperator Mavriki və onun oğullarını öldürərək, hakimiyyəti öz əlinə keçirdi. Bizansda daxili mübarizənin güclənməsi nəticəsində vətəndaş müharibəsi təhlükəsinin yaranmasından istifadə edən II Xosrov vaxtilə ata dediyi Mavrikinin qisasını almaq bəhanəsi ilə 604-cü ildə imperiyaya müharibə elan etdi. Əvvəlcə Sasanilər Bizansın Kiçik Asiyadakı əksər ərazilərini zəbt edərək uğur qazandılar. Döyüşlərin birinci ilində onlar sərhəd qalası Daranı ələ keçirib orada qırğın törətdilər. 606-cı ildə iki illik mühasirədən sonra Həsna de Kafa qalası, bir il sonra isə Amida, Martiropol və Edessa qalaları ələ keçirildi. Mesopotamiyanın fəthi 609-cu ildə tamamlandı. Qafqazda da işlər yaxşı gedirdi. 605-ci ildə Sasanilər Bizansın Daxili Ermənistan əyalətini (Bizansın erməni mülkləri) işğal etdilər, İveriya isə onlara döyüşsüz tabe oldu. Onların qoşunları, hətta imperiyanın paytaxtı Konstantinopola yaxınlaşdılar [1, s.85; 4, s.67-68, 70; 9, s.78; 10, s.83-84; 14, s.92-93; 15, s.100; 16, s.318-319; 19, s.80-82; 21, s.79-81; 26, s.360; 30, s.350-351].

610-cu ildə iki Sasani ordusu Fərat çayını keçdi: biri imperiyanın Kiçik Asiya əyalətlərini işğal etdi, digəri isə Suriyanı fəth etmək üçün hərəkət etdi. Farsların Fərat boyunca hərəkəti Konstantinopoldakı saray çevrilişi ilə eyni vaxta düşdü. Fokanın öldürülməsindən sonra taxttaca oturan I İrakli (610-641) əvvəlcə II Xosrovla barışmağa cəhd etsə də, sonuncu "romalılarla nəinki barışıq bağlamadı, hətta digər əraziləri də onlardan aldı". 611-ci ildə Sasanilər Suriyanı onun əsas şəhəri Antakya ilə birlikdə fəth etdilər və burada I İraklinin başçılığı altında ordunu məğlub etdilər. Patriarx öldürüldü, şəhər sakinləri isə əsir götürüldü. Bundan sonra imperator Kilikiya darvazalarını tərk etməyə məcbur oldu, ardınca isə düşmən Tarsı işğal etdi. Növbəti il Sasanilər Kiçik Asiyaya daxil oldular və Kappadokiya Qeysəriyyəsini ələ keçirərək, on minlərlə əsiri tutub İrana göndərdilər. 613-cü ildə onlar Dəməşqi, 614-cü ildə Fələstini, sonra isə Qüdsü fəth etdilər, burada patriarx Zəkəriyyəni tutdular və xristianların əsas müqəddəs rəmzi sayılan – İsanın çarmıxa çəkildiyi Müqəddəs Xaçı ələ keçirdilər [4, s.71-72; 9, s.78-79; 10, s.84; 12, s.36-37; 15, s.100-101; 16, s.319; 19, s.81-82, 88, 92; 21, s.81; 24, s.224-226; 26, s.360-361; 30, s.352-353, 355; 32, s.426].

616-cı ildə Sasanilər Misirə hücum edərək İsgəndəriyyəni tutdular, nəticədə imperiyanın paytaxtı çörəksiz qaldı. Sonra onlar Qalatiya və Paflaqoniyanı da ələ keçirərək, Xalkidona çatdılar (617), 622-ci ildə isə Rodos adası və Ankiranı işğal etdilər. I İrakli yenidən II Xosrovu sülhə dəvət etdi, lakin bu dəfə də onun xahişi rədd edildi. Bizansın vəziyyəti ümidsiz olaraq qalırdı. Onun Avropa əyalətləri Sasani dövləti ilə ittifaqa girən avarlar tərəfindən işğal edilmişdi. 617-ci ildə avarların başçılığı ilə kutriqurların və slavyanların çoxsaylı dəstələri Konstantinopola yaxınlaşdılar [1, s.85; 12, s.37-

38; 13, s.182; 19, s.100; 21, s.81-82; 24, s.225-226; 30, s.354, 355].

Bununla belə, imperator I İrakli özünü qeyri-adi siyasətçi və sərkərdə kimi göstərdi. İlk növbədə onun elçiləri kutriqurlar arasında avar hökmranlığından narazılıq yaratmağa müvəffəq oldular və sonuncular bundan xəbər tutduqdan sonra Bizansla danışıqlara razı oldular. 619-cu ildə I İrakli avar xaqanı ilə danışıqlara başladı ki, bu da 620-ci ildə sülh müqaviləsinin bağlanması ilə başa çatdı. İmperator müqaviləni təmin etmək üçün xaqana girovlar (o cümlədən qeyri-qanuni oğlu İoann Afalarixi və bacısı Məryəmin oğlu Stefanı) vermək, həmçinin hər il ödənilən xəracın miqdarını artırmaq məcburiyyətində qaldı. Bundan sonra avarlar Konstantinopolun mühasirəsini dayandırdılar və 620-ci ildə Dunaydan keçərək geri çəkildilər. Bunun sayəsində I İrakli möhlət aldı və Sasanilərlə bağlı planlarını həyata keçirməyə başlamaq imkanı qazandı [8, s.184; 13, s.182; 16, s.320; 21, s.82; 24, s.226; 30, s.354-355; 32, s.429].

I İraklinin planı zəbt edilən torpaqları (Qərbi Anadolu, Suriya, Fələstin, Mesopotamiya və Misir) düşmənin ixtiyarına buraxmaq, onları nizamsızlaşdırmaq və diqqətlərini imperiyanın mərkəzindən yayındırmaq, düşmən ərazisinin dərinliyinə basqın etmək, onun arxa cəbhəsini məhv etmək və bununla da müharibəni davam etdirmək imkanından məhrum etməkdən ibarət idi. Bunun üçün imperator dəniz yolundan istifadə edərək, qoşunlarını Qafqazın qərb sahilinə göndərdi. Qeyd edək ki, bu müharibə müasirləri tərəfindən xristian dini üçün "səlib yürüşü" kimi qiymətləndirilirdi. Çünki Sasanilər Qüdsdə Müqəddəs Xaçı ələ keçirərək, onu paytaxtlarında hərbi qənimət kimi nümayiş etdirirdilər. Bundan əlavə, II Xosrov zəbt etdiyi torpaqlarda hərbi ehtiyaclar üçün kilsələrdən maddi sərvətlərini alırdı. Bütün bunlar I İrakliyə onlara qarşı müharibəni səlib yürüşü elan etməyə və bununla da ordu sıralarına könüllüləri cəlb etməyə imkan verdi [13, s.182].

İmperator baş komandan vəzifələrini şəxsən öz üzərinə götürdü və 5 aprel 622-ci ildə Pasxa bayramının ikinci günündə Kiçik Asiyaya gedərək, burada müharibəyə hazırlaşmağa başladı. Konstantinopoldan ayrılan I İrakli dəniz yolu ilə Nikomediyanın cənubunda, Propontidanın Astakani körfəzinin sahilində yerləşən Pila limanına gəldi [19, s.102-103; 24, s.227].

Kiçik Asiyaya gələn I İrakli demək olar ki, bütövlükdə 622-ci ili ordusunun formalaşdırılması və öyrədilməsi və Sasani dövlətinin daxilində qarşıdan gələn kampaniyaya hazırlaşmaqla məşğul olmuşdur. İlk növbədə, o, əsasən Kiçik Asiyadadan cəlb edilmiş hərbi birləşmələrə arxalanaraq, strateqlər tərəfindən başçılıq edilən və Kiçik Asiya femalarının yaradılmasında ifadə olunan inzibati strukturda islahatlar aparmışdır. Bu dövrdə Bizans ordusunda şərq xalqlarına qarşı mübarizədə çox zəruri olan süvarilərin əhəmiyyəti qeyri-adi dərəcədə artmış, imperator həm oxatanlara, həm də oxatanların yüngül silahlı birləşmələrinə böyük əhəmiyyət verirdi [21, s.82; 23, s.58-61].

Ordunun islahatı I İrakliyə 622-ci ildə düşmənə qarşı hücuma keçməyə imkan verdi. Qərbdən şərqə doğru hərəkət edən imperator qoşunları Kappadokiyaya daxil olub, burada sərkərdə Şəhrivarazın qoşunları ilə bir neçə dəfə toqquşaraq uğur qazandılar. Sasani sərkərdəsi əvvəlcə düşmənin diqqətini yayındırmaq üçün Kiçik Asiya bölgələrini işğal etməklə hədələyərək, Kilikiyaya basqın etdi. Lakin I İrakli bu təhdidlərə məhəl qoymadıqda, Şəhrivaraz bizanslıların Persarmeniyadan İrana hücumundan qorxaraq, imperatorun arxasınca getməyə məcbur oldu. 623-cü ilin əvvəlində baş verən həlledici döyüşdə bizanslılar düşməni məğlub etdilər. Bundan sonra onlar qışı Pontda (Feofana görə Ermənistanda, yəni Bizansın Daxili Ermənistan əyalətində) keçirdikdən sonra 623-cü ilin aprelində I İraklinin başçılığı ilə dəniz yolu ilə Lazikaya gəldilər, oradan isə qəfildən Persarmeniyaya yola düşdülər [18, s.100-101; 23, s.61-63; 24, s.227-230; 28, s.134; 30, s.355; 32, s.431].

Yürüşün məqsədi Sasanilər dövlətinin mərkəzi əraziləri olduğundan, I İrakli baza etmək istədiyi Persarmeniya ilə əlaqəni təmin etmək üçün arxada əhəmiyyətli qüvvələr saxlamalı idi. Mərzbanların iqamətgahı və bu vilayətin mərkəzi olan Dəbil şəhəri göstərdiyi müqavimətə baxmayaraq, 623-cü ildə alınaraq dağıdıldı. Həmin il Bizans ordusu Atropatenaya soxuldu və burada Naxçıvanı və ətraf yaşayış məntəqələrini işğal edib dağıdaraq, Arazdan keçdi. Ümumiyyətlə, VII əsrdə Sasani-Bizans müharibələri

zamanı Naxçıvan ya Sasani, ya da Bizans qoşunlarının hücumuna məruz qalmışdır. Belə ki, Sebeos imperator I İraklinin 120 minlik ordusu ilə hücum edərək, Dəbil və Naxçıvan şəhərlərinin dağıdılması barədə yazır. Bundan əlavə, Tovma Artsruni də Dəbilin tutulması və dağıdılması haqqında məlumat verir. [1, s.85; 2, s.33; 7, s.68; 10, s.85; 19, s.103; 21, s.83; 23, s.64-65; 26, s.362; 28, s.136].

Naxçıvandan cənuba doğru hərəkət edən I İraklinin ordusu Atropatenaya soxularaq, həmin bölgənin paytaxtı Qazaka istiqamətində hərəkət etdi. I İraklinin sürətli basqınının məqsədi imperiyanın başına gətirilən fəlakətlərə görə II Xosrovdan qisas almaq idi. Bu səbəbdən də bütün Atropatena amansızcasına dağıdılırdı. Bizanslıların ölkənin dərinliyinə doğru hərəkət etməyə cəsarət edəcəyinə inanmayan II Xosrov işğalın qarşısını almaq üçün heç bir hazırlıq görməmiş, bu isə I İraklinin sürətli basqınını asanlaşdırmışdır. Sasani hökmdarları qədim saray etiketinə görə baharı sülalənin banisinin ilk iqamətgahı və orada, əfsanəyə görə, Zərdüşt tərəfindən tikilmiş əsas od ziyarətgahı olan Midiyada keçirirdilər. Məhz bu istiqamətdə hərəkət edən imperator Urmiya da daxil olmaqla bir neçə şəhəri darmadağın etdi [1, s.85; 23, s.65-66; 28, s.136].

Bizans ordusunun ərəblərdən ibarət ön dəstələri Qazakanı qoruyan Sasani dəstəsini məğlub etdilər. Bu hadisə II Xosrovu şəhəri tərk edərək, Dəstəgirdə qaçmağa məcbur etdi. Sürətli hücumunda heç bir müqavimətlə qarşılaşmayan I İrakli 623-cü ilin aprelində II Xosrovun iqamətgahı və zərdüştiliyin ən mühüm dini mərkəzlərindən biri olan Atropatenanın paytaxtı Qazakaya basqın edərək oranı dağıdtı. Şəhərdə yerləşən od məbədi məhv edildi, müqəddəs atəş isə Qüdsün dağıdılması və Müqəddəs Xaçın ələ keçirilməsinə qisas olaraq söndürüldü. Qazakanın məğlubiyyətindən sonra bütün bölgəyə səpələnmiş Bizans qoşunları ətraf ölkəni talan etməyə və viran qoymağa başladılar [1, s.85; 7, s.68; 21, s.83; 23, s.66; 24, s.230; 28, s.138; 32, s.431].

Qazakanın tutulması və dağıdılması haqqında ətraflı məlumat Musa Kaqankatlı verir: “Görəndə ki, İran şahı onun əlindən çıxıb qaçdı, böyük imperator I İrakli onu təqib etməyib Atrpatakan ölkəsinə hücum edir və İran şahlarının yayın istisində havası sərin olduğuna görə özlərinə istiqamətgah seçdikləri Qazaka (Gəncək) şəhərinə daxil olur. I İraklı ölkəni dağıdıb talan etdi və əhalisini əsir aldı” [3, s.98; 18, s.102]. Bu hadisə haqqında Sebeos da məlumat verir: “Adrbecan Qandzakı tərəfə hərəkət edərək, o, Vşnasp adlanan böyük Qratın məbədini dağıtdı” [19, s.103].

Tovmanın məlumatına görə, bizanslılar Qazakadan başqa Amaden və May məntəqələrini də viran qoydular. Feofan onu da xəbər verir ki, I İrakli Qazakanın məğlubiyyətindən sonra Fivarmaysı da (şəhərin adı və yeri izah olunmur) işğal etmiş, bu şəhəri və orada yerləşən məbədi yandırmış, sonra isə II Xosrovu dağ dərələrində təqib etmişdir [24, s.230; 28, s.138; 32, s.431].

Gözlənilməz hücumun yaratdığı vahimədən özünə gələn II Xosrov I İrakliyə ciddi müqavimət göstərməyə başladı. Suriyadan Nisibinə gələn sərkərdə Şəhrivarazı çağıran şahənşah qüvvələrini bir yerə yığaraq, düşməni sıxışdırmağa başladı. Artıq qış yaxınlaşdığından və Bizans ordusunun vəziyyəti kritik həddə çata biləcəyindən imperator Albaniyaya (Şimali Azərbaycana) çəkilmək qərarına gəldi. İlk növbədə I İrakli ümid edirdi ki, burada Cənubi Qafqaz xristianları bizanslılara qoşulacaq və nəticədə o, qüvvələrini artıra və ordunu ərzaqla təmin edə biləcəkdir [23, s.66-67; 28, s.138; 32, s.431-432].

I İrakli qoşunları və Qazaka bölgəsindən götürülmüş əsirlərlə birlikdə Cənubi Azərbaycanın şimal-şərqindəki Qaradağ silsiləsi başa düşülən “midiyalıların qüdrətli ölkəsi”ndən və Paytakarandan (Balasakan) Albaniyaya doğru hərəkət etdi. Yol qarın erkən yağdığı dağlıq ərazilərdən keçirdi ki, bu da hərəkəti çox çətinləşdirirdi. Həmin vaxta Sasanilər işğalın sürətindən yaranan vahimədən artıq qurtulduğundan, I İrakli düşmən qoşunlarının bir neçə hücumuna tab gətirməli oldu. Feofana görə, düşmənin çoxsaylı hücumları nəticəsində Bizans ordusu bütün əsirlərini (Feofana görə 50 000) itirdi. F.Uspenski isə əksinə hesab edirdi ki, imperator yerli əhalinin rəğbətini qazanmaq üçün məhbusları özü azad etmişdir. Eyni zamanda o, əsirlərin ordu ilə qışlaqlarda olmalarının düşüncəsizliyini qeyd edirdi. Bizanslılar Paytakarana indiki Miyanə və Ərdəbil şəhərlərinin ərazilə-

rindən keçib Arazın aşağı axarına doğru hərəkət etməklə gəldilər [18, s.102; 19, s.104; 23, s.67-68; 24, s.230-231; 28, s.138-139; 32, s.432].

Musa Kaqankatlanın xəbərindən göründüyü kimi, Paytakarandan Bizans ordusu Uti bölgəsinə doğru hərəkət etdi. Bizanslılar tarlaları və bağları viran qoyaraq və Utini ələ keçirərək, əvvəlcə Tərtər çayı yaxınlığında Kaqankaytuk kəndi yaxınlığında (çayın sol tərəfində, indiki Suqovuşan kəndinin yaxınlığında, Bərdənin təxminən 50 km qərbində yerləşirdi), sonra isə oradan köçərək, Tərtər çayı yanında Dütəkan kəndi yaxınlığında məskunlaşdılar. I İrakli Ktesifona qarşı yürüşə hazırlıq məqsədilə qışı Albaniya, İveriya və Persarmeniyada keçirmək istəyirdi. Bu səbəbdən də imperator alban, iver və erməni məliklərinə məktublar göndərərək, onları qış mövsümündə onunla görüşməyə və əsgərləri üçün düşərgə təşkil etməyə dəvət etdi, imtina etdikləri halda isə onların qalalarını ələ keçirib, torpaqlarını viran qoyacağı ilə hədələdi. Lakin gürcülər və ermənilər Sasani boyunduruğunu Bizans boyunduruğuna dəyişməyə qətiyyən səy göstərmirdilər. Alban məlikləri şahənşah II Xosrovun göstərişinə əməl edərək, Bərdə şəhərini tərk etdilər və hücumu dəf etməyə hazırlaşaraq qalalara dağılıb, müxtəlif ərazilərdə müdafiəni təşkil etdilər. Bizanslılar Albaniyanın paytaxtı Bərdəni ələ keçirərək, qışlaqlarda məskunlaşdılar (623-624). Bizans ordusunun əsas hissəsi Dütəkan kəndi yaxınlığında düşərgə saldığından, ehtimal etmək olar ki, I İraklinin Bərdədə yerləşdirdiyi kiçik bir dəstəsinin sayı paytaxt əhalisini tabeçilikdə saxlamaq üçün kifayət idi [7, s.68; 13, s.183; 18, s.102-103; 23, s.68; 25, s.152-153; 28, s.139].

Mənbələrdən də göründüyü kimi, Bizanslılar Bərdəni tutub yerli sakinləri əsir götürərək, əsarət altına almışdılar. Alban tarixçisi Musa Kaqankatlı Zəkəriyyə adlı keşiş haqqında məlumat verir: "Bərdə kilsəsinin Zəkəriyyə adlı yumşaq xasiyyətli keşişi şəhər sakinlərinin nicatı üçün öz həyatını belə əsirgəmirdi. Andla, ibadətlə və müxtəlif tədbirlərlə o, xaçpərəstlərin çoxlarını əsirlikdən qurtardı. Müxtəlif girovlarla yəhudilərlə bütpərəstləri şəhərdə saxlaya bildi". Sonradan albanlar onun xidmətlərini yüksək qiymətləndirərək, Zəkəriyyəni Albaniya katolikosu təyin etdilər [3, s.98; 18, s.102].

624-cü ildə müharibə Albaniya və Persarmeniyada davam etdi. Bu ilin hərbi əməliyyatları haqqında Feofanın ətraflı, lakin qeyri-müəyyən və kifayət qədər mübahisəli məlumatları Sebeos və Musa Kaqankatli tərəfindən əhəmiyyətli dərəcədə aydınlaşdırılır və əlavə olunur. Feofana görə, 624-cü ilin yazında imperator I İrakli lazlardan, abazqlardan və iverlərdən əlavə qüvvələr aldı. Onun xəbərindən göründüyü kimi, Albaniyada əvvəlcə I İrakliyə qarşı yalnız Şəhripalakanın (Saravlan) ordusu hərəkətə keçdi. Lakin o, döyüşə girməkdən yayınaraq, buradan imperatora qəfil hücum etmək ümidi ilə İrana gedən dərələri tutdu. Sasani ordusunun ağır vəziyyətini bilən I İrakli İrana yürüş etmək niyyətində idi. Lakin döyüşçülər, xüsusən də müttəfiq olan lazlar, abazqlar və iverlər bu plana qarşı idilər. Bizanslıların çaşqınlığından istifadə edərək, Şəhrivarazın (Sərvərəzan) başçılıq etdiyi ordu Şəhripalakana qoşulmaq üçün hərəkətə keçdi. Feofana görə, hər iki ordunun birləşməsinə imkan vermədən I İrakli Şəhripalakanın qoşunları ilə bir neçə uğurlu döyüşlər keçirdi. Lakin sonra Sasani sərkərdəsinin köməyinə Şəhrivarazın komandanlığı altında bir ordu gəldi. Tezliklə ordunun hər ikisi toqquşmaların birində I İrakli tərəfindən məğlub edildi və Şəhripalakan döyüşdə öldürüldü [17, s.22, 196; 23, s.68-69; 24, s.231-232; 28, s.139].

Mənbələrdən göründüyü kimi, ordudakı əhval-ruhiyyəni və düşdüyü çətin vəziyyəti nəzərə alan imperator İveriya vasitəsilə Bizansa qayıtmaq qərarına gəldi və bunun üçün yenidən Paytakarana geriyə döndükdən sonra, burada Sasani qoşunları tərəfindən mühasirəyə alındı. Sebeos bildirdiyi kimi, II Xosrov Pərviz I İraklinin Albaniyadan keçərək İveriyaya getmək niyyətində olduğunu öyrənərək, sərkərdəsi Şəhrivaraza onun yolunu kəsməyi əmr etdi. Sonuncu tez-tələsik Ayrarata çataraq Girdmana doğru hərəkət edib, onunla üzbəüz Tigrəgirddə (Tarnayut bölgəsi) düşərgə saldı. Şəhrivarazın əsas məqsədi I İraklinin qoşunlarının qərbə doğru irəliləməsinin və İveriyaya hücumunun qarşısını almaq idi. Bundan sonra sərkərdə Şahin 30 minlik ordu ilə vaxtında gəlib, I İraklinin arxa tərəfində düşərgə saldı. Bu ordu I İraklinin şərqə və cənuba gedən yolunu kəsməli idi. Sebeosun məlumatından aydın olur ki, Şəhrivarazın ordusu indiki Şəmkir və Gəncə şəhərlərindən

cənubda və Şəmkir çayının şərqində yerləşən Girdman bölgəsində yerləşirdi. Beləliklə, Şəhrivaraz və Şahinin qoşunları, Sebeos xəbər verdiyi kimi, Bizans ordusunu mühasirəyə almağa nail oldular [10, s.85; 19, s.104; 23, s.69; 25, s.53; 28, s.139-140; 33, s.32].

Lakin düşmən tərəfindən mühasirəyə alındığını görən I İrakli özünü itirmədi və tez bir vaxtda Tiqrəgirddə yerləşən Şahinin ordusuna hücum edərək onu məğlub edib, bayrağı ələ keçirdi. Bundan sonra Şəhrivaraz Şahinlə birləşdi və sağ qalan əsgərləri toplayaraq, I İrakliyə hücum etmək qərarına gəldi. Lakin imperator qalib gələrək, yolunu düşmənlərdən təmizlədi və bundan sonra Tiqrəgirddən geri çəkilməyə başladı. Sebeosun məlumatına görə, o, müasir Şuşa və Gorus şəhərlərinin ərazisindən keçərək, alban vilayəti olan Sünikin Tsxuk bölgəsinə, oradan isə Angelaut və Biçənək aşırımından keçərək, Naxçıvana getdi. Geri çəkilmə zamanı düşmənin bizanslıları təqib etdiyini görən lazlar, iverlər və abazqlar onlardan ayrıldılar [17, s.196-197; 18, s.103; 19, s.104; 23, s.69-70; 24, s.232; 28, s.141; 33, s.33].

Musa Kaqankatlı I İraklinin geri çəkilməsi barədə belə yazırdı: "Bunlardan sonra "Nor Zor" ("Yeni ordu") adlı İran qoşunu gəldi. Onun sərkərdəsi Şəhripalakan idi. Qoşunların arasında Qranikan Salar – şaha sadiq olan bir tanınmış sərkərdə də var idi. O da gəlib şahın hüzurunda hazır durmuş idi. Sonra Bizans tərəfdən yenə bir İran sərkərdəsi gəldi və bunlar birləşib I İraklinin ordularını Sünikin torpaqlarından geriyə qovdular. İran ordularının özlərinə bərk zərbələr dəyməsinə baxmayaraq, onlar bizanslıları öz ölkələrinə qədər qovdular, onların şəhərlərini silah gücüylə əllərindən aldılar" [3, s.99; 18, s.103].

Naxçıvandan Araz çayını keçərək, Vrnçunik kəndinə çatan I İraklinin qoşunları burada düşərgə saldılar. Tezliklə Sasani ordusu oraya gəldi, lakin həmin gün çayı keçə bilmədi. Sonra I İrakli yuxarıda adı çəkilən kəndi tərk edərək Atropatenaya, Xoy şəhərinə gəldi, oradan da Bağrəvəndə getdi. Uzun sürən bədbəxtliklərdən sonra imperator Apahunikə çatdı və burada Qrçmunk kəndində düşərgə qurdu. Bütün bu müddət ərzində bizanslıların ardınca Şəhrivarazın başçılıq etdiyi bir ordu gəlirdi. Sasani sərkərdəsi qoşunlarını Axiovit bölgəsində yerləşdirərək özü 6000 seçilmiş və yaxşı silahlanmış döyüşçü ilə gecə I İraklinin düşərgəsinə hücum etmək niyyəti ilə Artses bölgəsində pusquda oturdu. Lakin I İrakli onu qabaqlayaraq özü hücum edib, onun dəstəsini məğlub etdi. Şəhrivaraz ilk rastlaşdığı ata minərək qaçdı və bütün şəxsi əmlakını, o cümlədən bahalı qızıl silahlarını qalibin əlində qoyub getdi [19, s.104-105; 23, s.69-70; 28, s.141-143].

V.Çiçurov I İraklinin Sünikdən Naxçıvana geri çəkilməsinə dair məlumatları təhlil edərək yazır ki, Feofanın "Xronoqrafiya"sı "Syuniya" (Σύννων) haqqında deyil, "Hunlar ölkəsi" (Οὔννων) haqqında məlumat verir. Lakin Y.Manandyan Feofanın yunan mətnindəki Οὔννων sözünün heç bir səbəb olmadan Σύννων əvəzinə sadə hərf səhvi nəticəsində yarandığını hesab edərək, imperatorun Sünik tərəfə çəkildiyini ehtimal etmişdi. Eyni zamanda "Xronoqrafiya"nın bütün siyahıları "Οὔννων" oxunuşunu verir. Üstəlik, müəllif mətninin qorunub saxlanması dolayısı ilə "Xronoqrafiya"nın latın dilindən tərcüməsi ilə təsdiqlənir, burada bu ifadə "in regionem Hunnorum" kimi tərcümə olunur [17, s.196-197; 34, s.262-263].

Y.Manandyanın yenidən qurduğu marşrut Feofanın təqdim etdiyi məlumatlarla da ziddiyyət təşkil edir, ona görə I İrakli düşmənlə toqquşmalarda qalib gəlsə də, yenə də onların hücumu altında daim geri çəkilir. Beləliklə, "hunlar ölkəsi"nə səfər I İrakli üçün geri çəkilmə yoludur və o, "Fars ölkəsi"nin özündən deyil, ona tabe olan Persarmeniyadan geri çəkilirdi. Eyni zamanda salnaməçinin bəhs etdiyi "hunlar ölkəsi" yəqin ki, Persarmeniyadan kənarda yerləşirdi, əks halda I İrakli sonradan "hunlar ölkəsindən" qayıdarkən onun sərhədlərini keçməli olmazdı. Sebeosun məlumatı əsasında I İraklinin hərəkət marşrutunu bərpa etdikdə, hərbi əməliyyatların Persarmeniyanın daxilində getməsi aydın olur. Lakin Feofan imperatorun Persarmeniyada görünməsi barədə yalnız I İraklinin "hunlar ölkəsinə" geri çəkilməsindən bəhs etdikdən sonra xəbər verir. Yəni bizanslılar Persarmeniyadan kənarda olan bir yerdə idilər, "hunlar ölkəsi"nə yürüş isə çox güman ki, Sebeosun yazdığından əvvəl baş vermişdir. Beləliklə, Sebeos və Feofan Bizans-Sasani müharibəsinin müxtəlif epizodlarından bəhs edir və buna görə də Y.Manandyan tərəfindən Bizans

və erməni müəlliflərinin məlumatlarının eyniləşdirilməsi çətin ki, düzdür. Beləliklə, yuxarıda deyilənlərdən göründüyü kimi, I İrakli Sasani sərkərdələrinin birləşmiş qüvvələrini məğlub edərək, tələsik "hunlar ölkəsi"nə geri çəkildikdən sonra Persarmeniyaya qayıtdı və Bizansa doğru hərəkətini davam etdirdi [34, s.264].

İ.Çiçurov haqlı olaraq qeyd edir ki, Bizans müəllifləri bir çox türk xalqlarını, o cümlədən türkütləri hun adlandırırdılar ki, bu da Bizans ordusunun geri çəkildiyi "hunlar ölkəsi"ndən qərbi türklərin torpaqları kimi danışmağa imkan verir. Ümumiyyətlə, məlumdur ki, VII əsrin birinci yarısında Cənub-Şərqi Avropa çölləri, Qafqazdan şimalda yerləşən ərazilər və müasir Qərbi Qazaxıstan çölləri Qərbi Türk xaqanlığının hakimiyyəti altında idi. Lakin Feofanın məlumatlarının qeyri-müəyyənliyindən şikayətlənən İ.Çiçurov türklərin sərhədlərini dəqiq müəyyən etməkdə çətinlik çəkir [34, s.265].

Lakin Z.Bünyadovun araşdırmalarından məlum olduğu kimi, Albaniyada, xəzərlərə məxsus olan Qəbələ şəhərində onların inzibati mərkəzi yerləşirdi. 627-ci ildə Tiflisin uğursuz mühasirəsindən sonra xəzərlər qışlamağa məhz buraya gəldilər, 630-cu ildə Cənubi Qafqazdakı məğlubiyyətdən sonra da xəzərlər məhz buraya geri qayıdıb, öz yürüşləri üçün əlverişli məqamı gözləməyə başladılar. Qərbdə xəzərlərin nəzarətində olan ərazi ehtimal ki, İveriya sərhədlərinə, cənubda isə Kür çayına qədər uzanırdı. Öz mərkəzi hakimiyyəti ilə daimi əlaqə saxlayaraq, Şərqdə onlar təkcə Dərbənd keçidini deyil, həm də Dərbəndin qərbində yerləşən və onların vasitəsilə ən qısa müddətdə Albaniya ərazisinə qoşun yeritmək mümkün olan bütün keçidləri (Ağbulaq, Salavat və Bazardüzü dağı yaxınlığındakı iki keçid) daimi nəzarətdə saxlayırdılar. Buna əsaslanaraq, imperator I İraklinin məhz bu ərazi istiqamətində geri çəkildiyini ehtimal edə bilərik. Bu fərziyyə Feofanın imperatorun "kələ-kötürlü və çətin yollarla keçilməz ölkələrə" getdiyinə dair məlumatları da təsdiqləyir. Məlumdur ki, Qəbələ ətrafı dağlıq və meşəlikdir, dərələr və çətin dağ keçidləri var [7, s.78-79].

Bundan əlavə, "Tarix əl-Bab"ın anonim müəllifi xəbər verir ki, hicri 459-cu ilin şaban ayında (1067-ci ilin iyunu) Qəbələ qapısında Kuni (hunlar) xalqından olanlar şirvanşah I Fəribürzün əmisi oğlu Ləşkərsitanı qətlə yetirmişlər. Bir il sonra "şirvanşah əmisi oğlu Ləşkərsitanın qisasını almaq üçün Kuni sakinlərinə qarşı hərəkətə keçdi, çoxlu adam öldürdü, sürüləri ələ keçirdi və kəndləri yandırdı" [6, s.94; 29, s.60].

Bu fərziyyə I İraklinin sabirlərin torpaqlarına hərəkət etdiyini hesab edən alman tədqiqatçısı E.Qerlandın, hətta "hun torpaqlarını", Bizans müəlliflərinin köçəri olaraq, "hun" adlandıra bildikləri sakların yaşadığı Uti əyalətinin Sakasena bölgəsində lokallaşdıran Y.Kulakovskinin fərziyyəsindən daha üstündür [23, s.69-70].

Eyni zamanda VII əsrin əvvəllərindəki konkret tarixi vəziyyəti, yəni Bizansın Sasani dövləti ilə müharibələrində türkütlərin (sonralar isə xəzərlərin) rolunu nəzərə alaraq, İ.Çiçurov I İraklinin türklərin "hunlar ölkəsi"nə yürüşünü Bizans-türk (sonralar xəzər) əlaqələri silsiləsinin bir hissəsini hesab etməyi təklif edir. Onun fikrincə, artıq 624-cü ilin yazında I İrakli Sasanilərlə qarşıdurmada türklərin köməyindən istifadə etmək imkanını nəzərdə tuturdu. Lakin nədənsə bu kampaniya ittifaqın bağlanması ilə nəticələnmədi. Buna görə də görünür 626-cı ildə Bizans və Qərbi Türk xaqanlığı arasında bağlanmış müqavilənin həm ümumən Bizans-Sasani müharibələrinin, həm də həmin ildə Konstantinopolun avarların mühasirəyə alınmasının nəticələrinə təsir edən müqavilənin fonu kimi qəbul edilməlidir [34, s.265].

Artses bölgəsindəki yuxarıda qeyd olunan qələbədən sonra I İraklinin qoşunları 625-ci ilin qışını Van gölünün şimalındakı ərazilərdə keçirdilər. Feofanın ətraflı məlumatına əsasən 625-ci ilin mart ayının əvvəlində I İrakli buradan Kilikiyaya, oradan da Sebastiyaya getdi. Bu keçid zamanı I İraklinin qoşunları Martiropol və Amida arasındakı ərazidə dayandıqda, bizanslıları inadla izləyən və onlara müqavimət göstərməyə çalışan Şəhrivaraz onları burada yaxaladı [10, s.85-86; 19, s.105; 23, s.71; 28, s.144-145].

Ehtimal edilən hücumun qarşısını almaq üçün I İrakli dağ keçidlərini ələ keçirdi və döyüş qabiliyyəti yüksək olan qüvvələrlə Şəhrivaraza doğru hərəkət etdi. Lakin düşmən onunla üz-üzə gəlməkdən yayındı və I İraklinin düşərgələrinin yanından hərəkət edərək keçidi tutmaq və körpüləri dağıtmaq üçün Fərat çayına doğru yollandı. Düşmənin hərəkətindən xəbər-

dar olan imperator Dəclə çayını keçdi və Fərat çayına yaxınlaşaraq, onu dayaz yerdən keçdi. Feofanın dediyinə görə, I İrakli sonra Samosat və Germanikeya istiqamətindən hərəkət edərək, Adanaya, Şəhrivarazla döyüşün baş verdiyi Sar çayına doğru getdi. Sonra isə o, Sebastiyadan keçərək, ordusunun 625-626-cı illərin qışını keçirdiyi Ponta hərəkət etdi [5, s.144; 23, s.71-72; 28, s.146].

Hərbi kampaniya başa çatdı. Bununla belə, 623-cü ilin aprelində Bizansın erməni əyalətlərindən Qazakaya başlayan I İraklinin ilk yürüşünü uğurlu adlandırmaq olmazdı. Bizanslılar, Dəbil, Naxçıvan və Qazakı talan etmələrinə baxmayaraq, geri çəkildikləri zaman Sasanilər tərəfindən o qədər sıxışdırıldılar ki, bütün əsirlərini itirdilər və yalnız Qaradağ dağlarında onları təqib edən düşməni geridə qoyub ayrıldılar. Əslində bu, geri çəkilən ordu üçün fasiləsiz qələbələr silsiləsi idi. Arxa baza və ya təchizat olmadan manevr etmə qabiliyyəti I İraklini böyük bir sərkərdə və siyasətçi kimi səciyyələndirir. Feofan 624-625-ci illərdə I İraklinin yürüşünü tərifləsə də, Musa Kaqankatlanın tarixi əsərində bu hadisələrə daha ədalətli və dərin qiymət verilir: "İran ordularının özlərinə bərk zərbələr dəyməsinə baxmayaraq, onlar bizanslıları öz ölkələrinə qədər qovdular, onların şəhərlərini silah gücüylə əllərindən aldılar". Həqiqətən də I İraklinin hücumu zəiflədi, lakin ən dəhşətlisi o idi ki, o, düşmən qarşısında tək qaldı. Yerli xristianlar təkcə monofizitlər deyil, həm də xalkidonitlər Sasani hökmranlığı ilə barışdılar və ortodoks imperatora, nəinki heç bir dəstək vermədilər, həm də birbaşa olaraq ona qarşı çıxdılar. Lakin bütün bunlara baxmayaraq, hərbi yürüşün birinci mərhələsi onun xeyrinə başa çatdı [3, s.99; 13, s.183; 18, s.103; 28, s.146].

## Ədəbiyyat


1. Azərbaycan tarixi: [7 cilddə] / Məsul redaktor akademik N.Vəlixanlı. – Bakı: Elm, – c. 2 (III-XIII əsrin I rübü). – 2007. – 608 s.
2. Məmmədov, R. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü) / R.Məmmədov. – Bakı: Elm, – 1967. – 160 s.
3. Moisey Kalankatuklu. Albaniya tarixi / Tərcümə edəni, müqəddimə, qeyd və şərhlərin müəllifi Z. Bünyadov. – Bakı: Avrasiya press, – 2006. – 256 s.
4. Анонимная сирийская хроника о времени Сасанидов / Перевод Н.В.Пигулевской. – Москва: Записки института востоковедения, – 1939. Том 7, – с. 56-79.
5. Артамонов, М.И. История хазар / М.Артамонов. – Ленинград: Издательство Государственного Эрмитажа, – 1962, – 524 с.
6. Ашурбейли, С. Государство Ширваншахов (VI-XVI вв.) / С.Ашурбейли. – Баку: Элм, – 1983. – 343 с.
7. Буниятов, З.М. Избранные сочинения: [в 3 томах] / З.М.Буниятов. – Баку: Элм, – т. 1. Азербайджан в VII-IX веках. – 1999. – 468 с.
8. Васильев, А.А. Лекции по истории Византии: [в 2 томах] / А.А.Васильев. – Петроград: Типография Я.Башмаков и К°, – т. 1. Время до эпохи крестовых походов (до 1081 года). – 1917.– VIII, 356 с.
9. Всеобщая история Вардана Великого / Перевел Н.Эмин (с примечаниями и приложениями). – Москва: Типография Лазаревского Института восточных языков, – 1861. – XXIV, 202, 218 с.
10. Всеобщая история Степаноса Таронского, Асохика по прозванию, писателя XI столетия / Переведена с армянского и объяснена Н.Эмином. – Москва: Типография Лазаревского Института восточных языков, – 1864. – 337 с.
11. Гельцер, Г. Очерк политической истории Византии. Под редакцией и с предисловием В.Н.Бенешевича / Г.Гельцер. – Санкт-Петербург: Издание Студенческого Издательского Комитета при Историко-Филологическом Факультете СПБ. Университета, – 1912. – VIII, 196 с.
12. Герцберг, Г.Ф. История Византии. Перевод, примечания и приложения П.В.Безобразова / Г.Герцберг. – Москва: Издание К.Т.Солдатенкова, – 1897. – IX, 674 с.
13. Гумилев, Л.Н. Древние тюрки // Л.Гумилев. – Москва: Товарищество «Клышников – Комаров и К», – 1993. – 528 с.
14. Давид Багратиони. История Грузии / Текст издал и снабдил вступительной

статьей и указателями А.А.Рогава. – Тбилиси: Мецниереба, – 1971. – 274 с.
15. Джуаншер Джуаншериани. Жизнь Вахтанга Горгасала / Перевод, введение и примечания Г.В.Цулая. – Тбилиси: Мецниереба, – 1986. – 152 с.
16. Дмитриев, В.А. Всадники в сверкающей броне. Военное дело сасанидского Ирана и история римско-персидских войн / В.Дмитриев, – Санкт-Петербург: Петербургское Востоковедение, – 2008.– 368 с.
17. Известия древних греческих и римских писателей о Кавказе. Часть II. Византийские писатели. Лазика и Иберия / С латинского текста Штриттера перевел К.Ган. – Тифлис: Сборник материалов для описания местностей и племен Кавказа, – 1890. Выпуск IX. Отдел I, – с. 1-215.
18. История агван Моисея Каганкатваци, писателя X века / Перевод с армянского К.Патканова. – Санкт-Петербург: Типография Императорской Академии Наук, – 1861. – XV, 376 с.
19. История императора Иракла. Сочинение епископа Себеоса, писателя VII века / Перевод К.Патканьяна. – Санкт-Петербург: Типография Императорской Академии Наук, – 1862. – XI, 216 с.
20. Касумова, С.Ю. Азербайджан в III-VII вв. (Этно-культурная и социально-экономическая история) / С.Касумова. – Баку: Элм, – 1993. – 140 с.
21. Колесников, А.И. Иран в начале VII века (источники, внутренняя и внешняя политика, вопросы административного деления) // – Ленинград: Палестинский сборник, – 1970. Выпуск 22 (85), – 144 с.
22. Кулаковский, Ю.А. История Византии: [в 3 томах] / Ю.А.Кулаковский. – Санкт-Петербург: Алетейя, – т.2. – 1996.– 401 с.
23. Кулаковский, Ю.А. История Византии: [в 3 томах] / Ю.А.Кулаковский. – Санкт-Петербург: Алетейя, – т. 3. – 1996. – 456 с.
24. Летопись византийца Феофана от Диоклетиана до царей Михаила и сына его Феофилакта / В переводе с греческого В.И.Оболенского и Ф.А.Терновского. С предисловием О.М.Бодянского. – Москва: Университетская типография, – 1884. – IV, 370 с.
25. Мамедов, Т.М. Кавказская Албания в IV-VII вв. / Т.Мамедов. – Баку: Маариф, – 1993. – 216 с.
26. Мамедова, Ф. Кавказская Албания и албаны / Ф.Мамедова. – Баку: Центр Исследований Кавказской Албании, – 2005. – 800 с.
27. Мамедова, Ф. Политическая история и историческая география Кавказской Албании (III в. до н.э. – VIII в. н.э.) / Ф. Мамедова. – Баку: Элм, – 1986. – 284 с.
28. Манандян, Я.А. Маршруты персидских походов императора Ираклия // – Москва: Византийский Временник, – 1950. Том III, – с. 132-153.
29. Минорский, В.Ф. История Ширвана и Дербенда X-XI веков. Ответственный редактор А.А.Али-Заде. Перевод С.Г.Микаэлян / В.Минорский. – Москва: Издательство восточной литературы, – 1963. – 265 с. (+34 с. арабского текста).
30. Никифора, патриарха константинопольского «Краткая история» со времени после царствования Маврикия / Перевод Е.Э.Липщиц. – Москва: Византийский временник, –1950. Том III, – с. 349-387.
31. Пигулевская, Н.В. Византия и Иран на рубеже VI-VII веков / Н.Пигулевская. – Москва, Ленинград: Издательство Академии Наук СССР, – 1946. – 292 с.
32. Успенский, Ф.И. История Византийской империи в VI-IX вв. / Ф.Успенский. – Москва: Мысль, – 1999. – 828 с.
33. Халилов, М.Дж. О локализации албанского Тигранакерта // – Bakı: İrs, – 2007. №4 (28), – s. 32-34.
34. Чичуров, И.С. О кавказском походе императора Ираклия // – Москва: Восточная Европа в древности и средневековье, – 1979, – с. 261-265.

**Резюме**

**Вугар Самедов**

**Первый поход императора Ираклия I в Кавказ**

В 590 году после переворота шахиншах государства Сасанидов Хосров II Парвиз бежал в Византию. Здесь он, получив помощь от императора Маврикия, около озера Урмия в Азербайджане разбил заговорщиков и, вернув себе власть, в благодарность за услугу передал Византии некоторые территории. Однако после убийства Маврикия узурпатором Фокой в 602 году Хосров II воспользовался этим событием и под предлогом мести за императора начал войну с Византией. Сначала успех сопутствовал Сасанидам, которые, захватив огромные территории противника, дошли до Константинополя. Однако новый император Ираклий I, проведя в армии реформы, напал на Сасанидов и в течение 622-625 годов разбил их в нескольких сражениях.


***Ключевые слова:*** *Азербайджан, Албания, Византия, Сасаниды, Аварский каганат.*



**Summary**

**Vugar Samadov**

**The first campaign of Emperor Heraclius I to the Caucasus**

In 590, after a coup the Shahinshah of the Sassanid state, Khosrow II Parviz fled to Byzantium. Here, having received help from the Emperor of Maurice, he defeated the conspirators near Lake Urmia in Azerbaijan and, having regained power, transferred some territories to Byzantium in gratitude for the accommodation. However, after the murder of Maurice by the usurper Phocas in 602, Khosrow II took advantage of this event and, under the pretext of avenging the emperor, began a war with Byzantium. At first, success accompanied the Sassanids, who, having captured vast enemy territories, reached Constantinople. However, the new emperor Heraclius I, having carried out reforms in the army, attacked the Sassanids and defeated them in several battles during the years 622-625.


***Keywords**: Azerbaijan, Albania, Byzantium, Sassanids, Avar Khaganate.*